**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

Bakı şəhəri № 220/5 02 iyun 2011-ci il

Auditorlar Palatasının 2011-2013-cü cü illər üzrə iş planının "Auditor xidməti ilə əlaqədar təlimatlar, tövsiyələr və metodiki göstərişlərin hazırlanması" barədə 1.7-ci bəndinin icrası haqqında

Auditorlar Palatasının 2011-2013-cü illər üzrə iş planının - "Auditor xidməti ilə əlaqədar təlimatlar, tövsiyyələr və metodiki göstərişlərin hazırlanması" barədə 1.7-ci bəndinin icrası ilə əlaqədar Auditin tənzimlənməsi, təşkili və şəffaflığın təminatı idarəsi (M.Abbasov) tərəfindən hazırlanmış və təqdim olunmuş "Auditor təşkilatlarının və sərbəst auditorların maliyyə-təsərrufat fəaliyyətinin yoxlanılmasına dair Metodiki Göstəriş"in və "Auditor təşkilatlarının və sərbəst auditorların maliyyə-təsərrufat fəaliyyətinin yoxlanılmasına dair nümunəvi akt formasının tərtib edilməsinə dair Qayda"nın layihələri barədə idarənin rəisi M.Abbasovun məlumatını dinləyərək, verilmiş rəy (N.Talıbov) və təklifləri nəzərə alaraq, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor təşkilatlarının və sərbəst auditorların maliyyə-təsərrufat fəaliyyətinin yoxlanılmasına dair Metodik Göstəriş" və "Auditor təşkilatlarının və sərbəst auditorların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasına dair nümunəvi akt formasının tərtib edilməsinə dair Qayda" təsdiq edilsin (əlavə olunurlar).

2. Auditin tənzimlənməsi, təşkili və şəffaflığın təminatı idarəsinə (M.Abbasov, Y.Namazəliyev) tapşırılsın:

2.1 10 gün müdətində auditor təşkilatlarının və sərbəst auditorların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasına dair qrafikin layihəsi tərtib edilərək Palatanın rəhbərliyinə təqdim edilsin;

2.2 Auditor təşkilatlarının və sərbəst auditorların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasına dair qrafik təsdiq olunduqdan sonra auditor təşkilatlarının və sərbəst auditorların müvafiq qaydada və vaxtında məlumatlandırılması təmin edilsin;

2.3 "Auditor təşkilatlarının və sərbəst auditorların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasına dair Metodik Göstəriş"in və "Auditor təşkilatlarının və sərbəst auditorların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasına dair nümunəvi akt formasının tərtib edilməsinə dair Qayda"nın müddəalarına riayət olunması təmin edilsin.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**